**Beynəlxalq parlament təqaüdü**

**Siz vətəninizdə sosial, akademik və ya da siyasi sahədə fəal iştirak edirsinizmi? Siz də ölkənizin gələcəyini obirilərlə birlikdə fəal və məsuliyyətli sürətdə qurmaq istəyirsinizmi? Siyasət „səhnəsinin arxasına“ baxmağa və demokratiyanı lap yaxından izləməyə həvəsiniz varmı?**

Belə olan halda Almaniya Bundestaqı və Berlin şəhərində fəaliyyət göstərən universitetləri tərəfindən həyata keçirdikləri və dünyada tayı-bərabəri olmayan proqramda iştirak etmək imkanından istifadə edib Beynəlxalq parlament təqaüdünü (Internationales Parlaments-Stipendium-IPS) almaq üçün qəbul sənədlərinizi göndərin.

Almaniya Bundestaqı Berlin şəhərində fəaliyyət göstərən universitetləri ilə birgə işləyərək hər il hal-hazırda sayca artıq 25-ə çatan ölkələri təmsil edən və ixtisas sahibi olan təqribən 115 nəfər cavana Bundestaq üzvünün yanında bir neçə aylıq praktikanı keçərək bu yolla alman siyasətinin qərarvermə proseslərini öyrənmək və parlament işi sahəsində praktik təcrübəni qazanmaq məqsədilə dünyada misli-bərabəri olmayan imkanı yaradır.

Proqramın əsas məqsədi cavanların demokratiyaya və cəmiyyətə maraqlarını artırmaq və onları demokratik həyatda iştirakı naminə həvəsləndirmək  və hətta valeh etməkdir. Beynəlxalq parlament təqaüdü (IPS) demokratik dəyərlərin və tolerantlığın möhkəmlənməsinə və həmçinin Avropada mədəni müxtəlifliyin və sülh şəraitində yaşayışın dəstəklənməsinə qoyulmuş uzun müddətli sərmayədir.

Hal-hazırda iştirakçı ölkələr bunlardır: ABŞ, Albaniya, Azərbaycan, Belarusiya Respublikası, Bolqarıstan, Bosniya və Herseqovina, Çexiya, Ermənistan, Estoniya, Fransa, Gürcüstan, Xorvatiya, Qazaxstan, Latviya, Litva, Macarıstan, Makedoniya, Moldaviya, Polşa, Rumıniya, Rusiya, Serbiya , Slovakiya, Sloveniya və Ukrayna.

IPS proqramı mart ayının 1-də başlayır və ümumilikdə beş ay davam edir. Təqaüd tədbirlərinin əsasını Almaniya Bundestaqında deputatın ofisində həyata keçirilən üç ay yarımlıq praktika təşkil edir. Bundan savayı təqaüdçülər beş siyası fondlar tərəfindən keçiriləcək seminarlarda və Berlin şəhərində fəaliyyət göstərən üç universitət tərəfindən hazırlanmış əlavə akademik proqramda iştirak edəcəklər.

İştirakçılar Almaniya Bundestaqı büdcə vəsaitindən 450,-- € məbləğində aylıq təqaüd alacaqlar. Bundan savayı təqaüd həm də iki təqaüdçünün yaşadığı üç otaqlı mənzildə yerin və tələbələr üçün tibbi, fərdi qəza və məsuliyyət sığortalarına veriləcək xərclərin ödənilməsini nəzərdə tutur. Həmçinin Berlin şəhərinə gəlmə və buradan evə qayıtmaya sərf edilmiş yol xərcləri də ödəniləcək.

IPS proqramı haqqında əlavə məlumatları və qəbul sənədlərinə dair məsləhətləri www.bundestag.de/ips ünvanında tapa bilərsiniz.

Sizi IPS tədbirlərində iştirak etməyə ürəkdən dəvət edib ərizənizi almağa şad olardıq.